

**AYAZDA BERKUT**
**(AYAZDA BERKUT QIZI RƏHİMCANOVA) –**
*1991-ci ildə Karaqanda vilayətinin Janaarka rayonunda doğulub. E.A.Böketov adına Karaqanda Dövlət Universitetinin məzunudur. Bir sıra şeir yarışmalarının qalibi olub.*

## *SIRĞA*

Səni gördüm.
Gördüm, yanıb kül oldum.
Bu dünyada
kimsəni düşünməyən
canıma hopub getdin.

Səni gördüm...
Gördüm, yanıb kül oldum.
Bu "qərib"i
heç kim suçlamasın qoy!
Səni gördüyüm zaman
möcüzəyə büründüm.
Gözümdən itdiyin vaxt
cəhənnəmləri gördüm.
Səni gördüm.

Unutdum keçmişimi.
Sonra səndən
yalandan nifrət etdim.
Darıxmışam
ətrinin qoxusuyçün.
Darıxmışam
şirin gülüşün üçün.

Səni gördüm.
Köksümdə
başqa bir duyğu boğulur.
Ürəyim:
"Qucağına atılım!" söyləmişdi.
Ağlım: "Gedək!" demişdi.
"Lənət olsun!"
...Köynəyinə ilişib
mənim qızıl sırğamın bir tayı...

## *SƏNİ GÖRƏNDƏN BƏRİ...*

Dünən səni görəndən
kədərliyəm,
Könlün şəklini çəkdim
boz rənglə;
Öz halıma bənzətdim,
payızın rənglərini.

Dünən səni görüb
xəstələnmişəm.
Mənim təki
kim saxlar

sirrini yer üzündə?
İkimizin nəğməsini
yanlız ikən söylədim.

Dünən səni gördüm,
çox qəribsədim.
Adını qışqırmaq istədim
bərkdən.
Qucağıma yaslandı,
keçmədi zalım gecə...

Dünən səni görəndən
xəyal aləmindəyəm.
İkimizin haqqında
bir erkən xəyal qurdum.
Kağıza
həsrətdən xalı toxudum.
Qələmə hisslərdən
mürəkkəb qoydum...

Dünən səni gördüm...
Nağıllar dünyasına düşdüm...
Bu dünya?
Bu dünya boşmuş, sən demə.
Ömür boyu şeir yazmağım üçün
borcluyam
mənə verdiyin qəmə...

**(Rəsmiyyə SABİR *çevirib*)**